BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

***№3 Humanitar elmlər seriyası 2025***

# AZƏRBAYCAN ATABƏYLƏR DÖVLƏTİNİN MÜSTƏQİL SİKKƏLƏRİ

**Həsən Ə. ABDULLAYEV***

*Məqalə 1920-1921-ci illərdə Azərbaycan Respublikasının Şəmkir rayonu ərazisində aşkar edilmiş və hal-hazırda Amerika Numizmatika Cəmiyyətinin (ANC) fondunda mühafizə olunan Azərbaycan Atəbəylər dövlətinin hökümdarı Nüsrətəddin Əbu Bəkrin adından zərb olunmuş qızıl dinarların təhlilinə həsr olunub. Qeyd olunmalıdır ki, D.K.Koumciyan Kolumbia universitetində 1969-cu ildə müdafiə etdiyi fəlsəfə doktoru dissertasiyasında həmin sikkələrə səthi olaraq toxunsa da, onları hərtərəfli təhlil edib düzgün nəticələr irəli sürə bilməmiş, hətta bəzən sikkələrin zərb olunduğu dövrün tarixi hadisələrinə istinad edərkən tərhrifə yol vermişdir. Lakin müəllif məqalədə iddia edilən əsas fikrin, yəni Azərbaycan Atabəylərinin öz adlarından müstəqil qızıl sikkə zərb etməsi iddiası haqqında faktların əsaslandırılması üçün dövrün bir sıra dəyərli tarixi mənbələrinə müraciət etimiş və ümumi konseptual mövqe sərgiləmişdir. Bundan başqa məqalədə qeyd olunan faktların gücləndirilməsi və əsaslandırılması üçün dövrün bir sıra başqa bənzər numizmatik materiallarına müraciət edilmişdir. Məqalədə müəllif mənbələrin təsvirini vermiş, müqayisəli-tipoloji metodlardan istifadə etmiş, həmin sikkələrin tarixi-numizmatik kontekstdə təhlilini aparmış, sikkələrin şərhinə yeni yanaşma sərgiləmişdir. Məqalə xəritə, təhlil olunan sikkələrin Ərəbcə və Azərbaycanca transkripsiyaları, çəkiləri, ölçüləri, fotoşəkil və mövcud cizgiləri, eləcə də sikkələr haqqında məlumatlar ilə zənginləşdirilmişdir.*

**Açar sözlər:** Azərbaycan Atabəylər dövləti, Eldəgizlər, Qızıl Arslan, Əbu Bəkr, dinar, dirhəm, sikkə.

**https://doi.org/10.30546/458901.2025.03.2028**

**Giriş.** XII əsrin ortalarına yaxın Böyük Səlcuqlu imperiyasının parçalanması ilə bərabər onun mövcud olduğu geniş ərazilərdə Anadolu Səlcuqluları, Kirman Səlcuqluları, Xorasan Səlcuqluları, Suriya Səlcuqluları və İraq Səlcuqluları kimi dövlətlər və ilk vaxtlarda onların vassalları kimi fəaliyyət göstərən yarımmüstəqil və müstəqil atabəyliklər yarandı.

* *Bakı Dövlət Universitetinin Tarix fakültəsinin I kurs tələbəsi; hasan.abdullayev15@gmail.com; ORCID ID: 0009-0002-9473-4664*

Bu atabəyliklərdən biri də Azərbaycan ərazisində yaranan, mənşəyi türklərin Qıpçaq boyuna məxsus olan və Eldəgizlər olaraq da tanınan Azərbaycan Atabəylər dövləti idi. Atabəylər dövlətini elmi ədəbiyyatda Eldəgizlər və ya Eldənizlər dövləti kimi də adlandırırlar. Professor Əli Rəcəbli *(2, s.145)* və Akademik Ziya Bunyadov *(10, s. 4)* bu dövlətin adını Atabəylər dövləti ilə paralel Eldənizlər dövləti kimi də təqdim edirlər.

Lakin bu dövlətin təqdim edilən adlarından biri də Eldəgizlər dövlətidir. Biz numizmatik materiallar üzərində yazılan Eldəgiz sözünü əsas tutaraq dövlətin adının Eldəgizlər variantını məqalədə qeyd etməyi daha məqsədə uyğun hesab edirik.

XII əsrdə Azərbaycan Atabəylərində istifadə olunan sikkələrin əsasını mis və qismən mis və qurğuşun tərkibli aşağı əyarlı gümüş (billon) dirhəmlər və fülüslar təşkil edirdi. Həmin sikkələr qeyri-sabit çəkili olub dövlətin Gəncə, Beyləqan, Şəmkir, Naxçıvan, Bərdə, Dəbil və Ərdəbil kimi ticarət şəhərlərindəki zərbxanalarda zərb edilmişdir. Bu tip sikkələr adətən İraq Səlcuq sultanlarının adlarından kəsilir və üzərində Sultan, Atabəy və dövrün Xəlifəsinin adları zərb edilirdi.

Akademik Ziya Bünyadov "Azərbaycan Atabəyləri Dövləti" monoqrafiyasında Atabəy Qızıl Arslanın dövründə öz adından qızıl dinar zərb etdiyini qeyd edir *(10, s. 96).* Bunu həmin dövrün tarixçilərinin tarixi qeydləri də sübut edir *(5, s. 333; 7, 1/2, s. 104; istinad – 10, 96 əl-Bundari; 10, 96 Xondəmir; 10, 96 əl-Əsir).* Həmin iddia dönəmin önəmli tarixi hadisələrindən birinə əsaslanır. Belə ki, hicri 584-ci (1188) ildə Abbasi Xəlifəsi ən-Nasir Bağdadda Qızıl Arslanın adına xütbə oxutdurur və onu hökmdar elan edir *(5, s. 327; istinad – 10, 93 əl-Hüseyni).*

Ancaq təəssüflər olsun ki, Sultan Qızıl Arslanın adından zərb edilən qızıl sikkələrin heç biri dövrümüzə gəlib çatmamış və ya hələ ki aşkara çıxarılmamışdır. Lakin üç unikal qızıl sikkə vardır ki, bunlar Eldəgizlərin qızıl sikkələrinin olması barədə bizə əsas verir. Qeyd edilən qızıl dinarlar 1920-1921-ci illərdə Azərbaycan Respublikasının Şəmkir rayonu ərazisində aşkar edilmiş və hazırda Amerika Numizmatika Cəmiyyətinin (ANC) fondunda mühafizə olunmaqdadır.

**Müzakirə.** Hazırkı məqalənin yazılmasında məqsəd yuxarıda qeyd olunan qızıl dinarları araşdırmaq, elmi dövriyyəyə daxil etməkdir. Sikkələrin təsnifatını verməzdən əvvəl onların Qızıl Arslan deyil onun xələfi Nüsrətəddin Əbu Bəkr tərəfindən zərb edildiyini qeyd etmək istəyirik.



**Şək. 1**
Çəki: 3.65qr Ölçü: 30mm
Avers:
لا إله إلا الله \ محمد رسول الله \ الناصر لدين الله
Allahdan başqa İlah yoxdur / Məhəmməd Allahın Elçisidir / ən-Nasir li din-Allah
Revers:
سلطان \ أبو بكر بن محمد \ جيهان بهلوان
Sultan / Məhəmməd oğlu Əbu Bəkr / Cahan Pəhləvan

Şəkil 1-in aversinin ilk sətirində İslam rəmzinin ilk hissəsi **{La ilahə}** (لا إله) pozulsa da, ikinci hissəsi olan **İllallah** (إلا الله) tam şəkildə oxunur. Növbəti sətirdə İslam peyğəmbərinin adının **{Məhəm}məd** (محمد) bir hissəsi, **Rəsulallah** (رسول الله) sözünün isə tamamı oxunur. Sonuncu sətirdə Xəlifənin adının **{ən-Na}sir** (الناصر) yalnız son üç hərfi oxunsa da, ləqəbi **Li din-Allah** (لدين الله) tam şəkildə oxunur. Sikkə üzərində heç bir tarix və ya zərb yerinə rast gəlmirik.

Aversin aşağısında yazıların olduğu dördkünc ilə onu əhatə edən yarımdairə arasında pozulmuş formada olsa da, bir ornament görünür. Qeyd olunan ornament haqqında bir neçə mülahizə mövcuddur. Bunlardan ən geniş yayılmış olanı qızılgül qönçəsi simvolu variantıdır. İslam təsəvvüfündə gül İslam peyğəmbəri hz. Məhəmmədin (s.ə.v) rəmzi olaraq dəyərləndirilir. Təsəvvüfi simvolizmdə gül ilahi gözəlliyi ifadə etdiyi kimi həzrəti Peyğəmbəri də təmsil edir. Bu səbəbdən verd-i-Muhəmmədi və ya gül-i-Muhəmmədi şəklində hilyə-i-şəriflər hazırlanmışdır *(8, s. 466-467).*

Digər bir mülahizə isə həmin ornamentin əbədi yaşam çiçəyi simvolu olaraq da dəyərləndirilməsidir.

Sikkənin reversinin ilk sətirində deformasiyaya uğramış olsa da, **Sultan** (سلطان) sözü oxunur. Burada Atabəy və Səlcuqlu sikkələrindən tanış olduğumuz "əl-Əzəm" (əzəmətli) sözünün izinə rast gəlmirik. Ola bilsin ki, bu ya zərbdə istifadə olunmayıb, ya da, sikkənin üzərində aşınmaya məruz qalıb. İkinci sətirdə **Əbu Bəkr** (أبو بكر) və **ibn** (بن) sözləri tam şəkildə görünsə də, **Məh{əmməd}** (محمد) sözünün yarısı pozuntuya məruz qalmışdır. Üçüncü sətirdə **Cahan Pəhləvan** (جيهان بهلوان) ləqəbi açıq şəkildə oxunur. Qeyd etmək lazımdır ki, üçüncü sətirdəki Cahan Pəhləvan ləqəbini həm Atabəy Əbu Bəkr və Atabəy Özbək, həm də, onların atası Atabəy Məhəmməd öz sikkələrində istifadə etmişdir.

Reversin yazılarının sağ tərəfində nöqtələr ilə əhatələnmiş yarımdairənin içində xəncər və ya qılınc təsviri görünür. Həmin təsvir Eldəgizlər dövləti sikkələri üçün olduqca səciyyəvi xüsusiyyətdir. Belə ki, bu simvola Atabəy Şəmsəddin Eldəgizin İraq Səlcuqlu Sultanlarının adlarından zərb etdirdiyi sikkələrdə də rast gəlmək mümkündür. Qeyd edək ki, ondan sonra gələn digər Atabəylərin də sikkələrində bu qəbildən olan ox, yay, yaba və digər silah təsvirləri geniş istifadə olunmuşdur.

İlk sikkənin təsnifatından onun Atabəy Əbu Bəkr ibn Məhəmməd Cahan Pəhləvanın adına Sultan ünvanıyla zərb edildiyini görə bilirik. Lakin numizmatikada bu fikrin əksini iddia edən alimlər və tədqiqatçılar da mövcuddur.

D.K.Koumciyan Ata-Malik Cüveynidən sitat gətirərək Xəlifə ən-Nasirin 594-cü (1198) ildə İraq, Xorasan və Türküstan Sultanı ünvanını Xarəzmşah Təkişə verdiyini bildirir *(3, s. 352).* Dövrün tarixçilərindən İbn əl-Əsir də, Xəlifənin Sultan III Toğrul ilə mübarizəsi zamanı Xarəzmşaha mənşur göndərərək Sultanın ərazilərini ona iqta payı kimi verməsi və Bağdada dəvət etməsini yazır *(istinad - 10, s. 101 əl- Əsir).* Lakin burada tədqiqatçı hadisələrin xülasəsini sona qədər vermir. Belə ki, Xəlifə ən-Nasir Xarəzmşah Təkişə məktub yazaraq Sultan III Toğrulun onun ərazilərinə soxulmasından şikayətlənir və Xarəzmşahdan yardım istəyir. Məktub ilə barəbər o Sultanın hakimiyyəti altında olan bütün torpaqlarının iqta kimi Xarəzmşaha bağışlanması haqqında mənşur göndərir *(istinad - 10, s. 101 əl- Əsir).* Məktubu alan Təkiş 590-cı (1193) ildə Xarəzmdən yürüşə keçir. Səmnan adlı ərazidə Atabəy Məhəmməd Cahan Pəhləvanın İnanc xatundan olan oğlu Qutluq İnanc da öz tərəfdarları və Sultan III Toğrulu tərk edən İraq əmirləri ilə birlikdə Xarəzmşaha qoşulur *(5, s. 341; istinad 10, - s. 101 əl-Əsir; 10, s. 101 əl-Hüseyni).*

Xəlifə ən-Nasir düşünürdü ki, vəziri ibn əl-Qəssabın başçılığı ilə Xəlifə qoşunlarının ona kömək etməsinin əvəzinə Xarəzmşah Sultanın torpaqlarının bir hissəsini ona verəcək. Lakin Təkiş Xəlifəyə heç bir

torpaq vermək niyyətində olmur. Xəlifə isə Xarəzmşahın Sultanın mülklərinə sahib olmasının əhəmiyyətini qeyd etmək məqsədilə Təkişə Sultana məxsus fəxri paltar və xələt verilməsini vəzirinə tapşırır. Vəzir Xəlifənin nümayəndəsi kimi Xarəzmşahı hədiyyələri və məktubu təqdim etmək üçün öz yanına dəvət edir. Amma Təkiş özünə qarşı tələ qurulmasından şübhələnərək vəzirin düşərgəsinə hücum əmri verir. Vəzir qaça bilsə də, bundan sonra Xarəzmşahla Xəlifə arasında münasibətlər birdəfəlik pisləşir *(7,1/2, s. 102; istinad – 10, s. 104 əl-Əsir; 10, s. 104 əl-Cüveyni).*

Göründüyü kimi qeyd olunan dövrün xaotik siyasi və hərbi vəziyyəti bizə Koumciyanın fikri ilə razılaşmağa imkan vermir. Əlavə olaraq qeyd etmək istəyirik ki, baş verən hadisələr zamanı Atabəylər dövlətinin başında olan Əbu Bəkr bu münaqişələrə qarışmamış, rəqiblərdən heç birinin tərəfini saxlamamışdır. Atabəy Əbu Bəkr qeyd olunan dövrdə ölkə daxilindəki siyasi-iqtisadi məsələlərlə məşğul olmuş və torpaqlarına qarət basqınları edən gürcülərlə mübarizə aparmışdır.



**Şək. 2**
**Çəki: 1.63qr** **Ölçü: 19mm**
**Avers:**
**لا إله إلا الله \ وحده لا شريك له \ الناصر لدين الله \ أمير المؤمنين**
**Allahdan başqa İlah yoxdur / Təkdir, Şəriki yoxdur / ən-Nasir Li din-Allah / Möminlərin əmiri**
**Revers:**
**محمد رسول الله \ السلطان المعظم \ {أبو بكر } \ جيهان بهلوان**
**Məhəmməd Allahın Elçisidir / Əzəmətli Sultan / {Əbu Bəkr} / Cahan Pəhləvan**

Şəkil 2-dəki sikkə digərinə nisbətən daha az oxunan vəziyyətdədir və hər tərəfdə dörd sətirdən ibarətdir. Sikkədəki sözlərin çoxu pozuntuya məruz qalsa da məzmunun ümumiləşmiş təsnifatını vermək mümkündür. Sikkənin avers hissəsinin ilk sətrində İslam rəmzinin ilk hissəsinin **{La}** (لا) inkar ədatı pozulsa da, **İlahə** (إله) sözü açıq şəkildə oxunur. Rəmzin son hissəsi **{İllallah}** (إلا الله) pozulsa da vaxtilə onun sikkənin aşınmış geniş hissəsində mövcud olduğunu ehtimal edə bilirik. İkinci sətirdə **Vəhdə la** (وحده لا) sözü oxunur, **Ş{ərikələh}** (شريك له) sözünün isə yalnız ilk hərfini görə bilirik. Üçüncü sətirdə Xəlifənin adının **{ən-Na}sir** (الناصر) yalnızca son üç hərfi oxuna biləcək vəziyyətdədir, ünvanın **Li din-<u>Allah</u>** (لدين الله) isə bir hissəsi tam oxunsa da son hissəsi aşınmaya məruz qaldığından zəif şəkildə görünür. Sətrin mərkəzində, yəni Xəlifənin adı ilə ünvanı arasında gülə bənzər ornament nəzərə çarpır. Sonuncu dördüncü sətirdə isə **{Əmir} əl {mö}min{in}** (أمير المؤمنين) sözü mövcuddur. Həmin söz son sətirdə hissə-hissə düşmüşdür. Bu sikkənin üzərində də heç bir tarix və ya zərb yerinə rast gəlmirik.

Sikkənin reversinin ilk sətrində **Rəsul{allah}** (رسول الله) sözünün yarısı oxunur. Bu bizə həmin sözdən əvvəl sikkənin aşınmış hissəsində **{Məhəmməd}** (محمد) sözünün olması ehtimalını söyləməyə əsas verir. Lakin bildirmək istəyirik ki, aşınma səbəbindən sikkə üzərində İslam peyğəmbərinin adı görünmür. İkinci sətirdə çox zəif də olsa **Sultan əl-müəzzəm** (السلطان المعظم) sözlərini oxuya bilirik. Üçüncü sətirdə hökmdarın adından heç bir izə rast gəlinmir. Lakin tipi, xəttatlıq üslubu və digər sikkəni əsas götürərək bu sətrin degenerasiyaya uğramış hissəsində **{Əbu Bəkr}** (أبو بكر) adının olduğunu ehtimal edirik. Dördüncü sətirdə isə açıq şəkildə **Cahan Pəhləvan** (جيهان بهلوان) sözləri oxunur.

Qeyd etmək istəyirik ki, qeyd olunan sikkənin ön və arxa tərəflərində tam olaraq mənalarını açıqlaya bilmədiyimiz ornament bənzəri işarələr mövcuddur.

Reversdə əzəmətli Sultan sözündən sonra heyvan fiquruna bənzəyən (pələng, şir və s.) ornament görünür. İşarənin sol tərəfi aşınmaya məruz qaldığı üçün haqqında dəqiq fikir bildirə bilmirik.

Yuxarıda qeyd edilən ornamentin aşağı hissəsində mərkəzində dairə olan bir ornament görürük. Koumciyan öz təsnifatında bunu heyvan başına bənzədir *(3, s. 352).* Lakin qeyri-standart quruluşa malik olduğu üçün biz haqqında dəqiq təsnifat vermək istəmirik.

Aversdə ən-Nasir sözündən sonra kərtənkələyə bənzər, sikkənin mətnindən müstəqil bir şəkildə ornament mövcuddur. Bir baxımdan həmin işarəni səhləb çiçəyinə də bənzətmək mümkündür.

Göründüyü kimi şəkil 2-dəki sikkə hər iki üzündə anlaşılmayan qeyri-adi işarə, şəkil və ya ornamentlər ilə zəngindir. Sadalanan bu xüsusiyyətlər haqqında bəhs etdiyimiz sikkələrin unikallığını daha da artırır.



**Şək. 3**
**Çəki: 1.74qr** **Ölçü: 20mm**
**Avers:**
**محمد رسول الله \ الناصر لدين الله \ أمير المؤمنين**
**Məhəmməd Allahın Elçisidir / ən-Nasir Li din-Allah / Möminlərin əmiri**
**Revers:**
**أبو بكر \ جيهان بهلوان \ محمد**
**Əbu Bəkr / Cahan Pəhləvan / Məhəmməd**

Şəkil 3-dəki sikkə digər iki sikkəyə nisbətən daha az oxunaqlı vəziyyətdədir və çox qəliz xəttatlıq üslubuna məxsusdur. Sikkənin avers hissəsinin ilk sətrində **{Məhəmmə}d** (محمد) sözünün son hərfi görünür. Daha sonra isə tam şəkildə **Rəsul** (رسول) sözü və **{Al}lah** (الله) ləfzinin son üç hərfi oxunur. İkinci sətirdə Xəlifənin adının **{ən-Nasi}r** (الناصر) son hərfi oxunur. Ünvanı isə **Li di{n}-Al{lah}** (لدين الله) aşınma səbəbindən hissə-hissə oxunur. Ən aşağıdakı pozulmuş sətrin yuxarıda oxuduqlarımıza əsasən məntiqi olaraq **{Əmir əl-möminin}** (أمير المؤمنين) sözü olduğunu ehtimal edə bilərik. Əlavə olaraq qeyd edək ki, sikkənin ilk sətirinin üstündə, mərkəz hissəsində qoç başına bənzər ornament təsviri görünür.

Aversin ilk sətrinin yuxarısında qoç buynuzu damğası görünür. Bu damğa güc və qəhrəmanlıq rəmzi kimi səciyyələndirilir. Bəzi mülahizələrə görə isə bu bolluq rəmzi kimi də qəbul edilir. D.R.Koumciyan 1969-cu ildə müdafiə etdiyi dissertasiyasında qeyd olunan sikkənin təs-

nifatını verərkən həmin damğanı dini simvol kimi səciyyələndirir *(3, s. 355).* Bu mülahizəyə hörmətlə yanaşsaq da, həqiqətə uyğun hesab etmirik. Belə ki, heç bir İslam sikkəsində damğa dini simvol kimi verilə bilməz. İslam pullarında dini simvol kimi kəlimeyi-şəhadət həkk edilir. Bir çox hallarda isə Qurani-Kərimdən ayələr də, dini simvol kimi sikkə üzərində göstərilir. Belə ayələrə məxsusən Əməvi və Abbasi sikkələri üzərində daha çox rast gəlinir. Erkən İslam pullarında da, belə ayələr sikkələr üzərində verilmişdir. Azərbaycan Atabəyləri sikkələri üzərində Tövbə və digər surələrin ayələrinin zərb olunmasını buna misal göstərmək olar *(1, s. 12, şək 7).* Qeyd edək ki, belə damğalar Türk damğa simvollarından sayılır və türk xalqlarının, eləcə də onların müxtəlif qruplarının milli xalçalarında qeyd olunan rəmzlərdən geniş istifadə olunur *(6, s. 111).*

Sikkənin reversinin ilk sətrində **{Əb}u Bəkr** (أبو بكر) sözü oxunur. İkinci sətrin əvvəlində bir hissəsi pozulan sözün **M{əhəm}məd** (محمد) sözü olduğunu ehtimal edirik. Sikkənin sol tərəfində şaquli formada yazılan sözün isə pozuntuya məruz qaldığı üçün dəqiq təsnifatını vermək mümkün deyil.



**Şək. 4.** Şəkil 3-dəki sikkə üzərində olan qoç buynuzu damğasının rekonstruksiyası.

Bir məqamı da, qeyd etmək istəyirik ki, qoç başına bənzəyən ornamentə Xarəzmşah hökmdarlarının sikkələrində də, rast gəlinir. Lakin bu heç də o demək deyil ki, Atabəy Əbu Bəkr həmin simvol ilə Xarəzmşah hökmdarını mədh edərək öz sikkəsində ona bağlılığını bildirir. Çünki araşdırmamıza görə bəhs edilən simvol Böyük Səlcuqlu və onun davamı olan digər regional Səlcuqlu (İraq və Kirman Səlcuqluları və b.) sikkələrində də qüdrət və hakimiyyət rəmzi kimi geniş istifadə olunub. Bu bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, özünü ali Səlcuqlu hakimiyyətinin davamçıları hesab edən həm Xarəzmşahlar, həm də Eldəgizlər sözü gedən simvoldan istifadə edərək öz hakimiyyətlərini aliləşdirməyə çalışmışlar.

Qeyd edilən fikri əsaslandırmaq üçün mövzuya aid olan həm Səlcuqlu, həm də Xarəzmşah hökmdarlarına məxsus qoç başı ornamentli sikkələri misal olaraq göstərməyi məqsədə müvafiq hesab etdik.



**Şək. 4**



**Şək. 5**



**Şək. 6**



**Şək. 7**

**Şək. 4.** Böyük Səlcuqlu; Səncər ibn Məlikşah
**Şək. 5.** Kirman Səcuqluları; Qara Arslan Qavurd ibn Çağrı
**Şək. 6.** Xarəzmşahlar; Təkiş ibn İl Arslan
**Şək. 7.** Xarəzmşahlar; Əla əd-Din Məhəmməd ibn Təkiş

Koumciyan öz araşdırmasında bu sikkənin aversinin son sətrini Məhəmmədin digər oğlu Özbəyin adı olaraq oxunmasının da, mümkünlüyünü qeyd edir *(3, s. 356).* Lakin burada üç məqamı nəzərə almaq gərəkdir.

1. Sikkənin revers hissəsində biz artıq hökmdarın adının oxunduğunu qeyd etdik. Ona görə də digər tərəfdə Özbəyin adının yazılması məntiqsizdir.
2. Hökmdar və vassalların adları əsasən sikkənin arxa üzündə, yəni reversdə qeyd edilir.
3. İslam numizmatikası ənənələrinə görə dini rəmzdən sonra sikkələrdə heç bir hökmdarın adı qeyd edilmir.

Qeyd edilən üç məqam müəllifin bu sikkə haqqında ehtimallarının yanlış olduğunu düşünməyə bizə əsas verir.

Məqalənin girişində Eldəgizlərin sikkələrinin əksər hissəsinin aşağı əyarlı materiallardan olduğunu qeyd etmişdik. Bu xüsusiyyət məqal-

ənin mövzusu olan tip sikkələr üçün də səciyyəvidir. Mövzumuz olan qızıl dinarlar ilə əlaqədar iddialarımızı gücləndirmək üçün həmin sikkələrdən iki nümunənin təsnifatını verməyi məqsədəuyğun hesab etdik.



**Şək. 8**
**Çəki: 14,7qr** **Ölçü: 27mm**
**Avers:**
**ضرب \ لا إله إلا الله \ محمد رسول الله \ الناصر لدين الله \ أمير المؤمنين**
**Zərb / Allahdan başqa İlah yoxdur / Məhəmməd Allahın Elçisidir / ən-Nasir Li din-Allah / Möminlərin əmiri**
**Revers:**
**خمسمائة \ السلطان عظيم \ شاهنشاه المعظم \ أبو بكر بن محمد**
**Beş yüz / Əzəmətli Sultan / Böyük Şahənşah / Məhəmməd oğlu Əbu Bəkr**

Şəkil 8-in aversinin birinci sətrində və sikkənin sağ tərəfi boyunca pozuntulu formada yazılar görünür. Məhəmməd Seyfəddini öz kitabında həmin yazıların sikkənin zərb yeri olan **{Ərdəbil}** (أردبيل) sözü olduğunu qeyd edir *(9, s. 104).* Lakin biz bu ehtimalı dəyərləndirsək də pozuntuların çox olması səbəbindən qəti fikir söyləmək istəmirik. Sağa doğru uzanan hissədə isə aşınmaya məruz qalsa da, **Zərb** (ضرب) sözünu oxuya bilirik. İkinci sətirdə **La İlahə İllallah**, (لا إله إلا الله) üçüncü sətirdə isə **Məhəmməd Rəsul Allah** (محمد رسول اللهss) sözlərini açıq şəkildə oxuya bilirik. Dördüncü sətirdə Xəlifənin adı və ləqəbi **ən-Nasir Li din-Allah** (الناصر لدين الله) sözləri oxunur. Son sətirdə isə Xəlifənin ünvanı **Əmir əl-möminin** (أمير المؤمنين) sözü pozuntuya məruz qalsa da zəif şəkildə oxunur.

Reversin ilk sətirinin üst hissəsində sikkənin zərb tarixi görünür. Burada ərəbcə beş yüz rəqəminin hərflə yazılmış şəkli olan **Xəmsü-**

**miyə...** (**خمسمائة**) sözü oxunur. Lakin yazının son hissəsi pozulduğundan bunun beş yüz neçənci il olduğunu dəqiq deyə bilmrik. İkinci sətirdə **Sultan əl-əzəm**, (**السلطان عظيم**) üçüncü sətirdə isə **Şahənşah əl-müəzzəm** (**شاهنشاه المعظم**) ünvanlarını açıq şəkildə görə bilirik. Dördüncü sətirdə **Əbu Bəkr** (**أبو بكر**) sözü, beşinci sətirdə isə xeyli pozuntuya məruz qalmış **Məhəmməd** (**محمد**) sözlərini xüsusi xətt növü ilə yazılmış formada oxuya bilirik.

M.Seyfəddini kitabında sözü gedən sikkənin təsnifatını verərkən ilk sətirdə yazılan Sultan sözünün Xarəzmşah Məhəmmədə işarət etdiyini və Əbu Bəkrin bu mis dirhəmi onun vassalı olaraq zərb etdiyini bildirərək Koumciyan ilə bənzər prizmadan çıxış edir. O, öz fikrini dönəmin ən qüdrətli dövlətinin Xarəzmşahlar dövlətinin olması və Eldəgizlərin geriləmə dövrü ilə izah edir *(9, s. 104).*

Amma bir daha qeyd etmək istəyirik ki, məqalənin mövzusu olan qızıl sikkələrin və əlavə olaraq təsnif edilən mis sikkələrin heç birinin üzərində Xarəzmşah hökmdarlarına məxsus liderlik kultunu sübut edəcək spesifik işarə, tərif, künyə, xitab və ya ünvana rast gəlmirik.



**Şək. 9**
**Çəki: 14,6qr** **Ölçü: 24-25mm**
**Avers:**
**خمسمائة \ لا إله إلا الله \ محمد رسول الله \ الناصر لدين الله \ أمير المؤمنين**
**Beş yüz / Allahdan başqa İlah yoxdur / Məhəmməd Allahın Elçisidir / ən-Nasir Li din-Allah / Möminlərin əmiri**
**Revers:**
**السلطان عظيم \ شاهنشاه المعظم \ أبو بكر بن محمد**
**Əzəmətli Sultan / Böyük Şahənşah / Məhəmməd oğlu Əbu Bəkr**

Şəkil 9-un aversinin ilk sətrinin üst hissəsində sikkənin zərb tarixi görünür. Burada ərəbcə beş yüz rəqəminin hərflə yazılmış şəkli olan **Xəmsümiyə...** (**خمسمائة**) sözü oxunur. Lakin yazının son hissəsi pozulduğundan bunun beş yüz neçənci il olduğunu dəqiq deyə bilmirik. İkinci sətirdə **La İlahə <u>İllallah</u>** (**لا إله إلا الله**) sözləri görünür. Lakin yazının ikinci hissəsi aşınmaya məruz qalmışdır. Üçüncü sətirdə **Məhəmməd Rəsul Allah** (**محمد رسول الله**) sözlərini oxuya bilirik. Üçüncü sətirdə isə Xəlifənin adı və ləqəbi **ən-Nasir Li din-Allah** (**الناصر لدين الله**) açıq şəkildə oxunur. Onu da qeyd edək ki, dördüncü sətirdə oxunmaz şəkildə pozulmuş hərflər görünür. Bunun üçüncü sətrin məntiqi davamı olaraq **<u>Əmir əl-möminin</u>** (**أمير المؤمنين**) sözü olduğunu təxmin edə bilərik.

Reversin birinci sətrində **Sultan əl-əzəm**, (**السلطان عظيم**) ikinci sətrində isə **Şahənşah əl-müəzzəm** (**شاهنشاه المعظم**) ünvanlarını açıq şəkildə görə bilirik. Üçüncü sətirdə **Əbu Bəkr** (**أبو بكر**) sözü, dördüncü sətirdə isə **Məhəmməd** (**محمد**) sözlərini xüsusi xətt növü ilə yazılmış formada oxuya bilirik. Burada hökmdarın adı ilə atasının adı arasındakı **ibn** (**بن**), yəni oğlu sözü pozuntuya məruz qaldığı üçün oxunmaz vəziyyətdədir. Qeyd edək ki, reversin son sətrinin alt hissəsində pozuntulu yazı görünür və ehtimal ki, bu sikkənin zərb edildiyi zərbxananın adıdır.

Bir faktı da qeyd etmək istəyirik ki, dövrün bütün vassal olan müsəlman ölkələrinin hökmdarları dövlətçilik ənənələrinə uyğun olaraq zərb etdirdikləri sikkənin ön üzündə ilk öncə asılı olduqları (ali hakimiyyətini qəbul etdikləri) hökmdarın ünvanını və adını, daha sonra isə öz ünvan və adlarını, sikkənin digər üzündə isə dini rəmzi və dövrün dini rəhbərinin (Xəlifə) adı və ləqəblərini qeyd edirdilər. Mövzumuzun əsasını təşkil edən sikkələrin heç birində biz bu zərb ənənələrinə rast gəlmirik və çox rahat bunların Səlcuqlu dönəminin müstəqil hakimiyyət rəmzi olan sikkələri ilə eyni qüvvədə olduğunu qəbul edə bilərik.

**Nəticə**. Göründüyü kimi araşdırılan dövrdə baş verən qarışıq siyasi hadisələrin fonunda hər hansı bir hökmdarın hakimiyyətinin bölgədə rəsmiyyət daşımasını dəqiq qeyd etmək mümkün deyil. Ancaq ehtimal edə bilərik ki, Atabəy Əbu Bəkr rəsmi olaraq Azərbaycan, Arran, İraq, Rey, Həmədan və əl-Cibəlin hökmdarı, əmisi Sultan Müzəffərəddin Qızıl Arslan Osmanın qanuni varisi olaraq bu haqqı özündə görərək lokal ərazilərdə olsa belə öz adından qızıl dinarlar zərb etdirmişdir.

Yekun olaraq qeyd etmək istəyirik ki, məqalədə göstərilən şərhlər, istinadlar və bütün sadalanan artefaktlar Azərbaycan Atabəylər dövlətinin müasir Azərbaycan dövləti və onun xalqının çoxəsrlik müstəqil ali dövlətçilik ənənənəsinin bir nümunəsi olduğunu sübut edir. Bəzi araşdırmaçılar mövcud aşağı əyarlı mis və billon sikkələrə əsaslanaraq

Eldəgizlərin vassal və regional dövlət olduğu fikrini müdafiə edir. Lakin məqaləmizin əsas mövzusu olan qızıl dinarların zərb edilməsi Azərbaycan Atabəylər dövlətinin vassal statusundan çıxaraq tam müstəqil dövlət statusuna malik olduğunun bariz nümunəsidir.

**AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ (1136–1225-ci illər)**




**Xəritə:**

Akademik Ziya Bünyadov tərəfindən tərtib edilmişdir *(2, s. 44).*

## ƏDƏBİYYAT


1. Məmmədova A. Azərbaycan Atəbəylərinin Sikkələri. Bakı, 2021, - 40 s.
2. Azərbaycan Tarixi Xəritələrdə. ATLAS. Bakı: "Azərbaycan Tarixçiləri" İctimai Birliyi, 2022, 252 s.
3. Kouymjian D.K. A numismatic history of Southeastern Caucasia and Adharbayjan based on the Islamic coinage of the $5^{th}/11^{th}$ to the $7^{th}/13^{th}$ centuries. Columbia University, Ph.d, 1969. 466 p.
4. Rəcəbli Ə. Azərbaycan Sikkələri. Bakı: Xalq Bank, 2012, - 360 s.
5. Muhammad b. Ali b. Süleyman er-Ravendi. Rahat üs-sudur ve Ayet üs-Sürur. Türkçeye çeviren Ahmet Ates. Cilt II. Ankara: Türk Tarih Kurumu Basımevi, 1999. –241- 469 s.

6. Prof.Dr.Tuncer Gülensoy, Orhundan Anadoluya Türk Damgaları, Damglar, İmler, Enler, TDAV, İstanbul 1989, 179 s.
7. Rasid ad-Din. Camiat Tawarih (metin), ll cild, 5 cuz, Selçuklular Tarihi yayinlayan Ahmed Ates. Ankara, 1960, 1/2, 244 s.
8. Sabri Çap. Tasavvufta Gül Sembolü ve Gül İle İlgili Telakkinin Oluşmasında Uydurma Hadislerin Rolü // bilimname XXXVI, 2018/2, 455-498 s.
9. Сейфеддини М.Мирабдуллаев А. Денежное обращение и Монетное дело Азербайджана lX-XlV веков. Баку: «Nafta - Press», 2004, 267 с.
10. Bünyadov Z. Azərbaycan Atabəyləri Dövləti. Bakı: Şərq-Qərb, 2007, - 311 s.

**İstifadə olunan numizmatik nümunələr**

**Şəkil 1.**
Müəllif hüquqları Amerika Numizmatika Cəmiyyətinə (ANC) məxsusdur.
**Şəkil 2.**
Müəllif hüquqları Amerika Numizmatika Cəmiyyətinə (ANC) məxsusdur.
**Şəkil 3.**
Müəllif hüquqları Amerika Numizmatika Cəmiyyətinə (ANC) məxsusdur.
**Şəkil 4, 5, 6, 7**
Müəllif hüquqları zeno.ru-ya məxsusdur. İnventar nömrələri: **#276770, #257025, #226055, #329641**
**Şəkil 8.**
Müəllif hüquqları Dövlət Ermitaj Muzeyinə məxsusdur. İnventar nömrəsi: **OH-B-M 8231**
**Şəkil 9.**
Müəllif hüquqları zeno.ru-ya məxsusdur. İnventar nömrəsi: **#33944**

## НЕЗАВИСИМЫЕ МОНЕТЫ ГОСУДАРСТВА АЗЕРБАЙДЖАНСКИХ АТАБЕКОВ

**ГАСАН А.АБДУЛЛАЙЕВ**

### РЕЗЮМЕ

Статья посвящена анализу золотых динаров, отчеканенных от имени правителя государства Азербайджанских Атабеков Нусрат ад-Дина Абу Бакра. Эти монеты были обнаружены в 1920–1921 годах на территории Шемкирского района Азербайджанской Республики и в настоящее время хранятся в фонде Американского нумизматического общества (ANC).

Следует отметить, что Д. К. Коумджиян в своей докторской диссертации, защищенной в Колумбийском университете в 1969 году, лишь поверхностно упомянул эти монеты, но не провел их всестороннего анализа и не сделал корректных выводов. Более того, при соотнесении монет с историческими событиями того периода он допустил искажения.

В отличие от него, автор статьи, чтобы обосновать основную идею — чеканку независимых золотых монет от имени Азербайджанских Атабеков, — обратился к ряду ценных исторических источников того времени и представил целостный концептуальный подход. Для подтверждения изложенных фактов также были использованы другие схожие нумизматические материалы того же периода.

Автор провел детальный анализ исторических источников, применил сравнительно-типологические методы и рассмотрел монеты в историко-нумизматическом контексте, предложив новый подход к их интерпретации.

Статья дополнена картами, транскрипциями анализируемых монет на арабском и азербайджанском языках, данными о весе и размерах, а также фотографиями, изображениями существующих контуров и дополнительной информацией о монетах.

**Ключевые слова:** Государство Азербайджанских Атабеков, Элдегизы, Кызыл Арслан, Абу Бакр, динар, дирхем, монета.

**INDEPENDENT COINS OF THE AZERBAIJANI ATABEGS STATE**

**HASAN A.ABDULLAYEV**

**SUMMARY**

The article is dedicated to the analysis of gold dinars minted in the name of Nusrat al-Din Abu Bakr, the ruler of the Atabegs of Azerbaijan, which were discovered in the territory of Shamkir district of the Republic of Azerbaijan in 1920-1921 and are currently preserved in the collection of the American Numismatic Society (ANS). It should be noted that although D.K. Koumjian briefly mentioned these coins in his PhD dissertation defended at Columbia University in 1969, he did not thoroughly analyze them or draw accurate conclusions. Moreover, he occasionally distorted historical events related to the period when the coins were minted. However, in the article, the author referred to several valuable historical sources from the period to substantiate the main argument—that the Azerbaijani Atabegs minted independent gold coins in their own names—and presented a comprehensive conceptual position. In addition, to reinforce and substantiate the facts mentioned in the article, several other similar numismatic materials from the period were referenced. In the article, the author provided descriptions of the sources, used comparative-typological methods, analyzed these coins within a historical-numismatic context, and presented a new approach to interpreting the coins. The article is enriched with maps, Arabic and Azerbaijani transcriptions of the analyzed coins, their weights, dimensions, photographs, existing designs, as well as detailed information about the coins.

**Keywords:** State of Azerbaijan Atabegs, Eldiguzids, Qizil Arslan, Abu Bakr, dinar, dirham, coin.